**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
_______ dos. Zaur Məmmədov
"____" ______ 2026-cı il

## Fənn sillabusu

**İxtisasın şifri və adı:** 6001012 Kimya və biologiya müəllimliyi ; 6001005 Fizika müəllimliyi; 6001020 Texnologiya müəllimliyi
**Fakültə:** Təbiyyat
**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** Pedaqogika-2 (Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 04 sentyabr 2024-cü il tarixli 3-29/3-2-575 F/2024 №-li əmri ilə təsdiq edilmişdir.)
**Kodu:** İF-B01.2
**Tədris ili:** 2025/2026
**Semestr:** VI (yaz)
**Tədris yükü:** Cəmi 150 saat. Auditoriya saatı – 45 (30 saat mühazirə,15 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 5 kredit
**II. Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** dos.Cəfərov Sahil Nizam oğlu
b/m. Həbibova Nərminə Əhmədağa qızı
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Ə.Məmmədov küçəsi 19,LDU-nun 2 saylı tədris binası
**Məsləhət günləri və saatı:** 2 ci gün saat 14.00-15.00
**E-mail ünvanı:** ceferovsahil610@gmail.com
**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**Əsas:**

1. H.Əhmədov, N.Zeynalova Pedaqogika Bakı, 2019
2. Ə.M.Abbasov, İ.A.Cavadov, B.O.İbadov Kurikulum bələdçisi: izahlar və tətbiqlər Bakı, 2020
3. F.İbrahimov, R.Hüseynzadə. Pedaqogika. I-II cild. Bakı, 2013
4. L.Qasımova. Pedaqogika. Bakı, 2012
5. M.İsmixanov. Pedaqogikanın əsasları. Bakı, 2008
6. F.Allahverdiyeva, S.Tağıyeva. Pedaqogika. Bakı, 2018

**Əlavə:**

7. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu.Bakı, 2009
8. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 sentyabr 2020-ci il 361 saylı qərarı.
9. İ.Həsənov, A.Rüstəmova, N.Babayeva Kurikulum Bakı,2023
10. A.Qəhrəmanov "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı, 2012
11. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası //Azərbaycan məktəbi, 2013, № 5.

**IV. Prerekvizit fənlər:** Pedaqogika-1
**V. Korekvizit fənlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin tədris olunmasına zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:**

Pedaqogika tədris kursu"Pedaqogika,psixologiya və incəsənət" kafedrası nəzdində pedaqoji yönümlü ixtisasların tədris planı çərçivəsində işlənmişdir.Tədris planına uyğun olaraq bu kurs bakalavr səviyyəsinin tələbələri üçün müstəqil fənn kimi tədris olunur. Kursun tədrisi III tədris ilinin VI semestrində (45 saat mühazirə,15 saat seminar) nəzərdə tutulur.
Kursun tədrisində məqsəd tələbələrə pedaqogika elminin təşəkkülü və inkişaf tarixi haqqında məlumat verilməsi, təlim, tərbiyə, təhsil, inkişaf anlayışlarının mahiyyətinin və bu proseslərlə əlaqədar kriteriyaların izah olunmasıdır.
Kursun tədrisi üçün ayrılan saatlar dairəsində pedaqogika elminin tərbiyəşünaslıq və məktəbşünaslıq bölmələri haqqında geniş bilgilər və praktik tapşırıqlar verməkdir. Bununla yanaşı, tərbiyənin yaranma tarixi, Azərbaycanda tərbiyə sahəsində mütəfəkkirlərin fikirləri, Azərbaycanda tərbiyə məsələləri ilə bağlı inkişaf tendensiyası izah olunur. Kursun tədrisində tərbiyənin qanunauyğunluqları, tərbiyənin xüsusiyyətləri, tərbiyənin prinsipləri, tərbiyənin növləri, tərbiyənin mərhələləri, tərbiyənin metodları və prinsipləri haqqında geniş miqyaslı bilgilərin verilməsi nəzərdə tutulmuşdur. Bundan başqa Pedaqogika-2 kursunun tədrisi zamanı məktəbşünaslıq bölməsi, məktəbi idarəetmənin forma və üsulları, məktəbin idarə olunmasında planlaşdırma məsələləri də geniş izah olunur.

**VII. Davamiyyətə verilən tələblər:**
Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.
**VIII. Qiymətləndirmə:**
Fənn üzrə tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Yəni tələbələrin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı ( 50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə görə verilir.
Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:
- 20 bal-seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal-kollokviumların nəticələrinə görə.
Qiymətləndirmə zamanı LDU-nun Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.
İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.
Qiymət meyarları aşağıdakılardır:
- 10 bal-tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal-tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal-tələbənin cavabı əsasən düzgündür;
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal-tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal-tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal-tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal-suala cavab yoxdur.
Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın miqdarı) 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:**

Mühazirə: 30 saat; Seminar: 15 saat; **Cəmi: 45 saat**

| № | Tədris olunan mövzuların məzmunu | Mühazirə | Tarix |
|---|---|---|---|
| 1. | **Mövzu №1.** Tərbiyə prosesinin mahiyyəti və məzmunu<br>**Plan:**<br>1. Tərbiyənin mahiyyəti, məqsədi və hərəkətverici qüvvələri<br>2. Tərbiyə prosesinin xüsusiyyətləri və mərhələləri<br>3. Tərbiyənin məzmunu<br>**Mənbə:** [1;3;6;8;9] | 2 | |
| 2. | **Mövzu №2.** Təbiyənin qanunauyğunluqları və prinsipləri<br>**Plan:**<br>1. Tərbiyənin qanunauyğunluqları və qanunları<br>2. Tərbiyə prinsiplərinin təsnifatı<br>3. Tərbiyə prinsiplərinin səciyyəsi və qarşılıqlı əlaqəsi<br>**Mənbə:** [1;2;3;8;9;10] | 2 | |
| 3. | **Mövzu №3.** Tərbiyənin metodları<br>**Plan:**<br>1. Tərbiyə metodları anlayışı və onların təsnifatı<br>2. Şüuru formalaşdıran metodlar<br>3. Fəaliyyətin təşkili və ictimai davranış təcrübəsini formalaşdıran metodlar<br>4. Fəaliyyət və davranışı stimullaşdıran metodlar<br>5. Tərbiyədə nəzarət, özünənəzarət və özünəqiymət metodları<br>**Mənbə:** [1;2;3;7;8] | 2 | |
| 4. | **Mövzu №4.** Məktəblilərdə dünyagörüşünün formalaşması. Əqli tərbiyə.<br>**Plan:**<br>1. Dünyagörüşü haqqında anlayış, onun mahiyyəti və əsas əlamətləri. Dünyagörüşü tərbiyəsinin psixoloji əsasları. 3.Dünyagörüşünün formalaşdırılmasında bilik və əqidənin rolu.Elmi dünyagörüşü, bilik, bacarıq və vərdişlərin formalaşdırılması əqli tərbiyənin əsasıdır.<br>2. Əqli tərbiyənin məzmunu və vəzifələri.<br>3. Əqli inkişaf və əqli qüvvələr. Əqli əmək mədəniyyəti və müstəqil idrak fəalyyəti.<br>**Mənbə:** [1;2;3;8;9] | 2 | |
| 5. | **Mövzu №5. İdeya-siyasi tərbiyə** | 2 | |

| | | | |
|---|---|---|---|
| | **Plan:**<br>1. İdeya-siyasi tərbiyənin mahiyyəti<br>2. İdeya-siyasi tərbiyənin məzmunu və vəzifələri<br>3. İdeya-siyasi tərbiyənin yolları və vasitələri<br>**Mənbə:** [1;2;3;8;9] | | |
| 6. | **Mövzu №6. Sosial yönümlü işlər və əxlaq tərbiyəsi**<br>**Plan:**<br>1. Sosial yönümlü işlərin mahiyyəti. İntizamlılıq. Həyat mövqeyi. Fəal və passiv mövqe<br>2. Əxlaq tərbiyəsinin mahiyyəti. Əxlaqi keyfiyyətlərin əsas tipləri: sırf əxlaqi keyfiyyətlər; ideya-əxlaqi keyfiyyətlər; əxlaqi-işgüzarlıq keyfiyyətləri;əxlaqi-iqtisadi keyfiyyətlər;əxlaqi-xarakteroloji keyfiyyətlər; əxlaqi-bioloji keyfiyyətlər<br>3. Əxlaq tərbiyəsinin məzmunu və əsas istiqamətləri<br>**Mənbə:** [1;2;3;7;8] | 2 | |
| 7. | **Mövzu №7. Əmək tərbiyəsi və peşəyönümü. İqtisadi tərbiyə**<br>**Plan:**<br>1. Əmək tərbiyəsinin mahiyyəti və vəzifələri. Məktəblilərin əmək tərbiyəsi sisteminə daxil olan formalar: təlim prosesində əmək tərbiyəsi; sinifdənxaric dərnək işi; sinifdənxaric kütləvi iş; şagirdlərin özünəxidmət əməyi; ictimai faydalı əmək<br>Şagird əməyinin təşkilinə verilən tələblər<br>2. Peşəyönümü işinin məzmunu. Peşəyönümü üzrə məktəbdə aparılan işlər<br>3. İqtisadi tərbiyənin mahiyyəti, məqsədi və vəzifələri. Şagirdlərin həyata hazırlanmasında iqtisadi tərbiyənin rolu<br>**Mənbə:** [1;2;3;8;9;10] | 2 | |
| 8. | **Mövzu №8. Estetik və fiziki tərbiyə**<br>**Plan:**<br>1. Estetik tərbiyə anlayışı. Estetik tərbiyənin məqsədi və vəzifələri<br>Estetik tərbiyənin prinsipləri<br>2. Estetik tərbiyənin sistemi, yolları və vasitələri<br>3. Fiziki tərbiyənin məqsədi və vəzifələri<br>Fiziki tərbiyə nəzəriyyəsinin əsas anlayışları: fiziki kamillik, fiziki tərbiyə, fiziki inkişaf, fiziki mədəniyyət<br>4. Fiziki tərbiyənin yolları və vasitələri. Fiziki tərbiyənin təşkili formaları<br>**Mənbə:** [1;2;3;8;9;10] | 2 | |
| 9. | **Mövzu №9. Ekoloji tərbiyə və hüquq tərbiyəsi**<br>**Plan:**<br>1. Ekoloji tərbiyə anlayışı. Ekoloji tərbiyənin məqsədi və vəzifələri<br>2. Məktəbdə ekoloji tərbiyənin yolları və vasitələri<br>3. Hüquq tərbiyəsi anlayışı.Hüquq tərbiyəsinin mahiyyəti və nəzəri əsasları<br>4. Məktəbdə aparılan hüquq tərbiyəsi işlərinin istiqamətlər<br>**Mənbə:** [1;2;3;8;9] | 2 | |
| 10. | **Mövzu №10. İctimai tərbiyə və ailə tərbiyəsi**<br>**Plan:**<br>1. İctimai(sosial) tərbiyə işinin mahiyyəti. Sosial iş<br>2. Ailədə təhsil-tərbiyə işləri.Pedaqogikada qarşılıqlı | 2 | |

| | | | |
|---|---|---|---|
| | münasibətlərin xarakterinə görə ailənin təsnifatı:ideal ailələr; orta ailələr; neqativ (qalmaqallı, əsəbi) ailələr;<br>Harmonik ailə;dağılmaqda olan ailə;natamam ailə Uğurlu ailələr; uğursuz ailələr<br>Ailənin funksiyaları. Ailə tərbiyəsinin məqsədi. Uşaqların ailədə tərbiyəsinə ən çox mənfi təsir göstərən səbəblər. Ailə tərbiyəsinin əsasları. Müasir ailə tərbiyəsi praktikasında valideynlərin öz uşaqlarına münasibətində fərqləndirilən üslublar: Avtoritar üslub; Demokratik üslub; Səhlənkar üslub<br>Ailə tərbiyəsinin məzmununu təşkil edən komponentlər: fiziki, əxlaqi, intellektual, estetik və əmək tərbiyəsi, iqtisadi, ekoloji, cinsi tərbiyə<br>3. Şagirdlərin tərbiyəsində məktəb, ailə və ictimaiyyətin birgə işi<br>**Mənbə:** [1;2;4;7;8;10] | | |
| 11. | **Mövzu №11. Şagird kollektivində şəxsiyyətin tərbiyəsi**<br>**Plan:**<br>1. Dərsdənkənar tərbiyənin formaları<br>2. "Kollektiv" anlayışı, kollektivin əlamətləri<br>3. Şagird kollektivinin yaranması və inkişafı<br>4. Kollektivin formalaşması mərhələləri<br>**Mənbə:** [1;2;4;7;8;10] | 2 | |
| 12. | **Mövzu №12. Sinif rəhbərinin işinin məzmunu və fəaliyyətinin səciyyəvi xüsusiyyətləri**<br>**Plan:**<br>1. Sinif rəhbərinin hüquq və vəzifələri<br>2. Sinif rəhbərinin işinin məzmunu və əsas istiqamətləri<br>3. Sinif rəhbərinin işinin səciyyəvi xüsusiyyətləri<br>4. Sinif rəhbərinin tərbiyəvi iş planı<br>**Mənbə:** [2;3;6;7;8;9;10] | 2 | |
| 13. | **Mövzu №13. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri**<br>**Plan:**<br>1. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işinin mahiyyəti, məqsədi və məzmunu.<br>2. Sinifdənxaric tərbiyə işinin formaları və təşkili prinsipləri<br>3. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçının vəzifələri və işinin məzmunu<br>4. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçının iş planı<br>**Mənbə:** [2;3;5;7;8] | 2 | |
| 14. | **Mövzu №14. Məktəbin idarə edilməsi və ona rəhbərlik**<br>**Plan:**<br>1. Pedaqoji sistemləri idarərtmənin mahiyyəti və əsasları<br>2. Məktəbə rəhbərlik və onun təşkili. Məktəbdaxili nəzarət və ona verilən tələblər<br>3. Məktəbdaxili idarərtmədə pedaqoji təhlil: parametrik təhlil; tematik təhlil; yekun təhlil<br>4. Məktəbin iş planı:prespektiv plan;illik plan;cari plan<br>5. Məktəb şurası və pedaqoji şura<br>6. Məktəb sənədləri<br>Məktəbin tədris maddi bazası və onun maliyyələşdirilməsi<br>**Mənbə:** [1;3;5;6;8;10] | 2 | |

| | | | |
|---|---|---|---|
| 15. | **Mövzu №15. Məktəbdə metodik işin təşkili**<br>**Plan:**<br>1. Məktəbdə metodik işin əhəmiyyəti və formaları.<br>Metodik işin məqsədi və vəzifələri.<br>Fənn metodbirləşmələri.<br>Elmi-pedaqoji seminarların, açıq dərslərin keçirilməsi, qarşılıqlı dərsdinləmələr,yaradıcılıq hesabatları müəllimlərin pedaqoji-metodiki ustalığının təkmilləşdirilməsi vasitəsi kimi.<br>2. Müəllimlərin attestasiyası.<br>**Mənbə:** [1;3;4;6;8] | 2 | |
| | **Cəmi** | **30saat** | |
| | **Seminar** | 2 | |
| 1. | Tərbiyə prosesinin mahiyyəti və məzmunu | 2 | |
| 2. | Tərbiyənin qanunauyğunluqları və prinsipləri | 2 | |
| 3. | Tərbiyənin metodları | 2 | |
| 4. | Tərbiyənin tərkib hissələri | 2 | |
| 5. | Şagird kollektivində şəxsiyyətin tərbiyəsi | 2 | |
| 6. | Sinif rəhbərinin işinin məzmunu və fəaliyyətinin səciyyəvi xüsusiyyətləri | 2 | |
| 7. | Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri | 2 | |
| 8. | Məktəbin idarə edilməsi və ona rəhbərlik | 1 | |
| | **Cəmi** | **15 saat** | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**

Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:
- informasiya mənbəyi ilə işin bacarıq və vərdişi;
- müqayisə, ümumiləşdirmə və sistemləşdirmə;
- konkretləşdirmə, sübut və rəddetmə, ziddiyyətləri görmə bacarığı;
- təhliletmə bacarıq və vərdişlərin formalaşdırılması.

Öyrənən tanış olur:
- tərbiyə prosesinin mahiyyəti və məzmunu ilə;
- tərbiyənin qanunauyğunluqları,prinsipləri və metodları ilə;
- sinifdənxaric və məktəbdənkənar tərbiyə işlər ilə;
- məktəbdə metodik işin təşkili formaları ilə.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**
- mühazirə,seminar,praktiki tapşırıqlar;
- təqdimat və müzakirə;
- debat;
- müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlimin nəticələri:**

**FTN 1.** Tərbiyənin meydana gəlməsi, inkişaf dövrləri, tərbiyə prosesinin mahiyyəti, məqsədi və qanunauyğunluqlarını öyrənib, şərh edir;
**FTN 2.** Tərbiyənin prinsipləri və metodlarını nümunələrlə izah edir;
**FTN 3.** Tərbiyə işinin məzmunu, əqli tərbiyə, əxlaq və mənəvi tərbiyə, əmək tərbiyəsi və estetik tərbiyə haqqında biliklərini nümayiş etdirir; ;

**FTN 4.** Fiziki və ekoloji tərbiyə, hüquq və iqtisadi tərbiyənin əhəmiyyətini həyatla əlaqələndirir və tətbiq edir ;

**FTN 5.** Valideyn-övlad münasibətlərinin pedaqoji əsasları, şagird özünüidarə orqanları və onların təşkili metodikası, sinifdənxaric və məktəbdənkənar tərbiyə işinin mahiyyətini öyrənib, təhlil edir;

**FTN 6.** Şagird kollektivinin xüsusiyyətləri, kollektivin mərhələlər üzrə formalaşması texnologiyasını və sinif rəhbərinin işinin məzmunu və əsas istiqamətlərini müqayisə edir;

**FTN 7.** Məktəbin idarə edilməsi, məktəbə rəhbərliyin ümumi əsasları və prinsipləri, pedaqoji şuraların hazırlanması və keçirilməsi mərhələlərinin təhlilini aparır.

## XIV.Tələbələrin fənn haqqında fikirlərinin öyrənilməsi

## XV. Kollokvium sualları:

### I. Kollokvium sualları

1. Tərbiyənin mahiyyəti, məqsədi və hərəkətverici qüvvələri
2. Tərbiyə prinsiplərinin təsnifatı
3. Tərbiyə metodları anlayışı və onların təsnifatı
4. Dünyagörüşü haqqında anlayış, onun mahiyyəti və əsas əlamətləri
5. Əqli tərbiyənin məzmunu və vəzifələri
6. Əxlaq tərbiyəsinin mahiyyəti və vəzifələri
7. Əxlaq tərbiyəsinin məzmunu və əsas istiqamətləri
8. İdeya-siyasi tərbiyənin mahiyyəti, məzmunu və vəzifələri
9. İdeya-siyasi tərbiyənin yolları və vasitələri
10. Əmək tərbiyəsinin mahiyyəti və vəzifələri

### II. Kollokvium sualları

1. İqtisadi tərbiyənin mahiyyəti, məqsədi və vəzifələri
2. Estetik tərbiyənin məqsədi və vəzifələri
3. Fiziki tərbiyənin məqsədi və vəzifələri
4. Ekoloji tərbiyənin məqsədi və vəzifələri
5. Hüquq tərbiyəsinin mahiyyəti və nəzəri əsasları
6. Ailədə təhsil-tərbiyə işləri
7. Şagirdlərin tərbiyəsində məktəb, ailə və ictimaiyyətin birgə işi
8. Dərsdənkənar tərbiyənin formaları
9. Şagird kollektivinin yaranması və inkişafı
10. Sinif rəhbərinin hüquq və vəzifələri

## XVI. İmtahan sualları:

1. Tərbiyənin mahiyyəti, məqsədi və hərəkətverici qüvvələri
2. Tərbiyə prosesinin xüsusiyyətləri və mərhələləri
3. Tərbiyənin məzmunu
4. Tərbiyə prinsiplərinin təsnifatı
5. Tərbiyə prinsiplərinin səciyyəsi və qarşılıqlı əlaqəsi
6. Tərbiyə metodları anlayışı və onların təsnifatı
7. Şüuru formalaşdıran metodlar
8. Fəaliyyətin təşkili və ictimai davranış təcrübəsini formalaşdıran metodlar

9. Fəaliyyət və davranışı stimullaşdıran metodlar
10. Dünyagörüşü haqqında anlayış, onun mahiyyəti və əsas əlamətləri
11. Əqli tərbiyənin məzmunu və vəzifələri
12. Əxlaq tərbiyəsinin mahiyyəti və vəzifələri
13. Əxlaq tərbiyəsinin məzmunu və əsas istiqamətləri
14. İdeya-siyasi tərbiyənin mahiyyəti, məzmunu və vəzifələri
15. İdeya-siyasi tərbiyənin yolları və vasitələri
16. Əmək tərbiyəsinin mahiyyəti və vəzifələri
17. Peşəyönümü üzrə məktəbdə aparılan işlər
18. İqtisadi tərbiyənin mahiyyəti, məqsədi və vəzifələri
19. Estetik tərbiyənin məqsədi və vəzifələri
20. Estetik tərbiyənin sistemi, yolları və vasitələri
21. Fiziki tərbiyənin məqsədi və vəzifələri
22. Fiziki tərbiyənin yolları və vasitələri
23. Ekoloji tərbiyənin məqsədi və vəzifələri
24. Hüquq tərbiyəsinin mahiyyəti və nəzəri əsasları
25. Ailədə təhsil-tərbiyə işləri
26. Ailə tərbiyəsinin məzmununu təşkil edən komponentlər
27. Şagirdlərin tərbiyəsində məktəb,ailə və ictimaiyyətin birgə işi
28. Dərsdənkənar tərbiyənin formaları
29. Şagird kollektivinin yaranması və inkişafı
30. Kollektivin formalaşması mərhələləri
31. Sinif rəhbərinin hüquq və vəzifələri
32. Sinif rəhbərinin işinin məzmunu və əsas istiqamətləri
33. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işinin mahiyyəti, məqsədi və məzmunu
34. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçının vəzifələri və işinin məzmunu
35. Məktəbə rəhbərlik və onun təşkili. Məktəbdaxili nəzarət və ona verilən tələblər
36. Məktəbdaxili idarərtmədə pedaqoji təhlil: parametrik təhlil; tematik təhlil; yekun təhlil
37. Məktəbin iş planı:prespektiv plan;illik plan;cari plan
38. Məktəb şurası və pedaqoji şura
39. Məktəbdə metodik işin əhəmiyyəti və formaları
40. Fənn metodbirləşmələri

**"Pedaqogika-2" fənninin sillabusu 6001012 – "Kimya və biologiya müəllimliyi" ; 6001005 – "Fizika müəllimliyi" ; 6001020 – "Texnologiya müəllimliyi" ixtisaslarının təhsil proqramı, tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.Sillabus "Pedaqogika, psixologiya və incəsənət" kafedrasında müzakirə edilərək təsdiq edilmişdir.**
**13 fevral 2026-cı il (protokol № 06).**

Fənn müəllimi: dos.S.N.Cəfərov

b/m.N.Ə.Həbibova

Kafedra müdiri: dos.A.X.Əliyev